Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23 iyul 2007-ci il tarixli, 923 nömrəli əmri ilə təsdiq edilmiş fənn kurikulumlarının və tədris planlarının tətbiqi ilə əlaqədar

**ƏMR EDİRƏM:**

1. **Azərbaycan Respublikasının təlim Azərbaycan, rus, gürcü dillərində olan və azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-III siniflərinin 2010-2011-ci dərs ili üçün tədris planları və tədris planları**na dair qeydlər təsdiq edilsin (1-6 nömrəli əlavələr).

2. Aparatın rəhbəri İ.Pirməmmədov, Kənd rayonları üzrə ümumi təhsil şöbəsi (A.Əhmədov), İqtisadiyyat şöbəsi (Ş.Əliyev), Dərslik və nəşriyyat şöbəsi (F.Şahbazlı) tədris planının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində, "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***12 iyun 2010-cu il***